***Ümummilli liderimiz Heydər Əliyev mədəniyyət siyasətini ölkəmizdə müstəqil dövlət quruculuğunun ən mühüm amillərindən biri hesab edirdi. Bütün fəaliyyəti boyu xalqımızın mənəvi dəyərlərinin qorunmasını, təbliğini və inkişaf etdirilməsini vacib vəzifə kimi qarşıya qoyan ulu öndər müstəqillik dövründə bu işin daha böyük məna daşıdığını, ölkəmizin beynəlxalq miqyasda tanınması və layiqli yer tutması üçün mədəniyyət faktorunun həlledici amillərdən biri olduğunu dəfələrlə vurğulamışdır. Heydər Əliyev özü mədəniyyət siyasətinə nə qədər böyük önəm verdiyini belə ifadə etmişdir: "Mən bütün həyatım boyu həmişə və hər yerdə, həyatımın bütün mərhələlərində, cəmiyyətin inkişafının bütün dövrlərində mədəniyyətə böyük əhəmiyyət vermişəm."***

# Mədəniyyətə dövlət qayğısının daha bir nümunəsi

Hələ sovet dövründə respublikamıza rəhbərlik etdiyi illərdə Heydər Əliyev Azərbaycanı İttifaq miqyasında ən uca mövqelərə yüksəltmək üçün sənaye, kənd təsərrüfatı kimi iqtisadiyyat sahələri ilə yanaşı, mədəniyyət sahələrinin – ədəbiyyat, musiqi, teatr, kino, tətbiqi sənət növlərinin inkişafına və təbliğinə də mühüm əhəmiyyət verirdi. Ulu öndər hesab edirdi ki, xalqın varlığının təsdiqi, nailiyyətlərinin təbliği üçün mədəniyyət ən vacib vasitələrdən biridir. O, özü bu barədə demişdi: "Xalq bir çox xüsusiyyəti ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən böyüyü mədəniyyətdir". Respublika rəhbərinin mədəniyyət faktoruna bu cür yüksək qiymət verməsi özünü ilk növbədə mədəniyyət və incəsənət xadimlərinə göstərilən diqqət və qayğı vasitəsilə büruzə verirdi. Təsadüfi deyil ki, ali fəxri titullara layiq görülmüş incəsənət xadimlərinin sayına görə Azərbaycan İttifaq miqyasında lider mövqedə idi. Heydər Əliyevin şəxsi qayğısı və qətiyyəti sayəsində Azərbaycan mədəniyyətinin görkəmli xadimləri – yazıçılar Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov və Rəsul Rza, musiqiçilər Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Rəşid Behbudov, rəssam Tahir Salahov, memar Mikayıl Hüseynov... SSRİ-nin ən yüksək fəxri titulu sayılan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdülər.




Heydər Əliyevin şəxsi qayğısını öz üzərində daim hiss edən sənət xadimlərindən biri də lap gənc yaşlarından ölkə miqyasında populyarlıq və şan-şöhrət qazanmış bəstəkar-müğənni Polad Bülbüloğlu olmuşdu. Azərbaycan Prezidenti İlham Əliyev Polad Bülbüloğluya "Heydər Əliyev" ordenini təqdim edərkən bu məqamı xatırladaraq demişdir: "Yaxşı bilirsiniz ki, ulu öndər "Heydər Əliyev həmişə sizə, sizin fəaliyyətinizə böyük diqqət göstərirdi. Zərifə xanım da həmişə sizə diqqət göstərirdi. Siz bizim evimizdə dəfələrlə olmusunuz və biz bir-birimizi 40 ildən çoxdur ki, tanıyırıq. Siz bizim üçün – valideynlərim və mənim üçün həmişə çox doğma adam olmusunuz. Ona görə xüsusi qeyd etməliyəm ki, bu gün – yubiley ərəfəsində sizinlə görüşmək, sizi təbrik etmək mənim üçün çox xoşdur."

Dövlət fəaliyyətinin bütün sahələrində olduğu kimi, mədəniyyət siyasətində də ulu öndərin yolunu inam və qətiyyətlə davam etdirən Prezident İlham Əliyev fevralın 3-də imzaladığı sərəncamla Polad Bülbüloğlunu "Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə" "Heydər Əliyev" ordeni ilə təltif etmişdir.



Səhnə fəaliyyətinə 14 yaşında ikən atası – böyük müğənni Bülbülü fortepianoda müşayiət etməklə başlamış Polad sonralar konservatoriyada Qara Qarayevin bəstəkarlıq sinfini bitirmiş, onun məktəbinin ən layiqli davamçılarından biri kimi tanınmışdır. Bir çox kamera və simfonik əsərlərin müəllifi olan Polad Bülbüloğlu otuzdan artıq bədii və sənədli filmə musiqi bəstələmiş, "Kitabi-Dədə Qorqud" eposunun motivləri əsasında "Eşq və ölüm" baletini yazmışdır. Ancaq onun sənətində ən mühüm yeri, heç şübhəsiz ki, mahnı yaradıcılığı tutur. Mahnılarının hamısını ilk olaraq özü ifa edən Polad Bülbüloğlu SSRİ müqyasında həm də ən populyar müğənnilərdən biri kimi tanınmışdı. Əslində, o, adi müğənni yox, yalnız öz mahnılarını oxuyan bəstəkar idi. Bütün səhnə fəaliyyəti ərzində hansısa başqa bəstəkarın bir mahnısını belə oxumamışdır. Yalnız son illər konsertlərində Bülbülün repertuarından bəzi xalq mahnılarını ifa edir. Musiqi yaradıcılığı ilə paralel olaraq, Polad Bülbüloğlu böyük tamaşaçı auditoriyası toplamış "Qorxma, mən səninləyəm" filmində baş rola çəkilmiş, peşəkar səviyyəli aktyor istedadına da malik olduğunu isbat etmişdir. Yaradıcılıq fəaliyyətinə görə Polad Bülüloğlu respublikamızın Xalq artisti fəxri adına layiq görülmüşdür.

Xüsusi qeyd etmək lazımdır ki, bütün bu yaradıcılıq uğurlarını o, yüksək dövlət vəzifələri və geniş ictimai fəaliyyəti yerinə yetirməklə paralel olaraq qazanmışdır. Bircə faktı yada salaq ki, Polad Bülbüloğlu uzun müddət həm də türk xalqlarının, türkdilli dövlətlərin mədəni inteqrasiyasında mühüm rol oynayan TÜRKSOY-a rəhbərlik etmiş, əslində, ilk sədr kimi bu təşkilatın işini qurmuşdur.

Görkəmli sənətkara yüksək dövlət mükafatını təqdim edərkən Prezident İlham Əliyev onun sənət uğurlarını yüksək qiymətləndirdikdən sonra ictimai fəaliyyəti üzərində xüsusi dayanaraq demişdir: "Eyni zamanda, dövlət xidmətində böyük nailiyyətləriniz olubdur, bu gün də var. Siz uzun illər Azərbaycanın Mədəniyyət naziri kimi mədəniyyətimiz üçün ən ağır illərdə böyük işlər görmüsünüz. Allaha şükür, indi Azərbaycan inkişaf edən ölkədir, maliyyə imkanlarımız da çoxdur. Amma siz Mədəniyyət Nazirliyinə rəhbərlik etdiyiniz dövrdə bizim maliyyə imkanlarımız yox idi. Əlbəttə, ölkə qarşısında o qədər böyük məsələlər dayanmışdı ki, bəzi hallarda mədəniyyətə vəsait çatmırdı. Siz bizim uzun illər ərzində əldə etdiyimiz nailiyyətləri qoruya və inkişaf etdirə bilmisiniz. Siz uzun illərdir ki, Azərbaycanı dünyanın supergüclərindən biri olan Rusiyada ləyaqətlə təmsil edirsiniz. Bilirəm ki, Azərbaycanın maraqları sizin üçün hər şeydən üstündür. Bu illər ərzində görüşlər əsnasında, əlbəttə, bir daha əmin oldum ki, çox düzgün qərar qəbul olundu və siz Rusiyada Azərbaycanın səfiri kimi çox böyük uğurlar əldə etmisiniz. Rusiya Azərbaycan əlaqələrinin inkişafında sizin çox böyük rolunuz var."

Müasir Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən birinin sənət uğurlarının və ictimai fəaliyyətinin bu cür yüksək qiymətləndirilməsi dövlətimizin, dövlət başçımızın milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə göstərdikləri qayğının, verdikləri yüksək dəyərin daha bir əyani nümunəsidir. Azərbaycan mədəniyyətinin tərəqqisi ölkəmizin dünya miqyasında tutduğu şərəfli yerin daha böyük dəyər qazanmasına xidmət edən amillərdən biridir.

***İlham ABBASOV, "Xalq qəzeti"***